# Mərahimin qəhrəmanlığı unudulmur

**18 yaşlı Mərahim Aslan oğlu Abdullayev ötən ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində Şəmkirin Keçili kəndindən şəhadətə yüksələn altı şəhiddən biri, yaşca ən kiçiyidir.**



O, 2002-ci il martın 27-də Şəmkir rayonunun Keçili kəndində dünyaya göz açıb. Atası Aslan fərdi təsərrüfatçı, anası Susanna evdar qadındır. Orxan və İbrahim adlı özündən böyük iki qardaşı var. Şəhidimizin oxuduğu məktəbin direktoru Fənarə Qəhrəmanova onu belə xatırlayır: "Mərahim nizam-intizama uyarlığı ilə yoldaşlarından fərqlənirdi. İdmana meyilli, vətənpərvər uşaq idi, həmişə yaşıdlarına əsgərliyə gedəcəyindən həvəslə danışar və xidmətdən sonra hərbçi kimi Milli Ordu sıralarında qalıb ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması uğrunda mübarizədə iştirak etmək istədiyini bildirərdi".

Mərahim Abdullayevlər ailəsinin sonbeşiyi olub. Sakit davranışı, mehribanlığı ilə yanaşı, dəli-doluluğu da var idi. Əldə-ayaqda olan uşaq kimi, həmişə hamının köməyinə çatar, ətrafındakılara yardımçı olmağı özünə borc bilərdi. Qardaşı İbrahim deyir: "Nə vaxt televizoru açsaydı, hərbi verilişləri axtarar, tapanda onlara baxardı. Bir dəfə dedi ki, mən əsgər gedəcəyəm, vəhşi ermənilərlə son nəfəsimə kimi vuruşacağam, şəhid olacağam. Buna görə onunla mübahisə edərdim. Kim istəyər ki, qardaşı torpaq altında yatsın?!"

Mərahimin 18 yaşı tamam olanda kənddə bəzi həmyaşıdlarını hərbi xidmətə çağırsalar da, hələlik ona heç nə deyilməmişdi. Buna görə də o, Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon idarəsinə gedib və tələb edib ki, onu da hərbi xidmətə yollamaq üçün çağırışçı elan etsinlər. Beləliklə, istədiyinə nail olub. Mərahim əsgər kimi Beyləqan rayonu ərazisindəki "N" saylı hərbi hissədə xidməti borcunu yerinə yetirib. Minaatan batareyada baş tuşlayıcı olub, intizamı, bacarığı ilə seçilib. Hərbi xidmətinin ilk 5 ayından sonra Vətən müharibəsi başlayıb və o, ön cəbhəyə könüllü olaraq yollanıb.

Mərahim Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Düşmən mərmisinə tuş gəlmiş neçə-neçə yaralı əsgərimizin, şəhidimizin arxaya gətirilməsində fədakarlıq göstərib. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən gərgin mübarizədə döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub. Hər dəfə evlə danışanda "oktyabrda gələcəyəm" deyirmiş. Lakin qayıdan üçrəngli bayrağa sarılmış nəşi olub. Şəhid olmazdan bir gün əvvəl son dəfə ailəsi ilə danışıb. Deyib ki, Ali Baş Komandanın səyi nəticəsində ordumuzun uğurları böyükdür, düşmənin sonuna çıxırıq, az qalıb. Qələbə qazanacağıq!

Dediyi kimi də oldu. Azərbaycan bu müharibədə tarixdə əvəzi olmayan yeni qələbə qazandı. Bu qələbənin əldə edilməsində əməyi olan Mərahim Abdullayev şəhadətindən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

İndi Keçili kəndində uşaqdan böyüyə kimi hamı Mərahimin döyüş yolu, qəhrəmanlığı ilə fəxr edir. Ad və anım günlərində, eləcə də milli bayramlarda həmyaşıdları, onu yaxından tanıyanlar, döyüşçü yoldaşları, məktəblilər, ictimaiyyətin və rayon hərb komissarlığın nümayəndələri 18 yaşlı qəhrəman şəhidi ehtiramla yad edir, məzarı üstünə gül-çiçək qoyur, ruhuna dualar oxuyurlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 8 avqust.- S.5.